### PREZİDENT İLHAM ƏLİYEV RUSİYA YƏHUDİ KONQRESİNİN PREZİDENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner səfər çərçivəsində Quba şəhərinə getdiklərini, Azərbaycanın regionlarında...



Bax səh. 2

### PREZİDENT İLHAM ƏLİYEV: HƏMİŞƏ ÇALIŞMIŞAM Kİ, AZƏRBAYCAN XALQINA LƏYAQƏTLƏ XİDMƏT EDİM

Xəbər verildiyi kimi, cari il fevralın 5-də və 6-da baş vermiş zəlzələlər Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törədib. Belə ki, baş verən zəlzələlər nəticəsində çox sayda fərdi ev qəzalı vəziyyətə düşüb, bir sıra sosial təyinatlı tikililərə və infrastruktur obyektlərinə ziyan dəyib. Hazırda Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən hər üç rayonda təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün intensiv şəkildə tikinti və təmir-bərpa işləri...



Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 12 mart 2019-cu il, çərşənbə axşamı / № 047 (5422). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


## Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Elçin Səfərəli oğlu Babayevin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Elçin Səfərəli oğlu Babayevin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti xanım Sahle-Uork Zevdeyə başsağlığı məktubu göndərib.

❖

Prezident İlham Əliyev Keniya Respublikasının Prezidenti Uhuru Kenyattaya başsağlığı məktubu göndərib.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Fransanın Baş naziri Eduard Filip Matinyon sarayında qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransanın Baş naziri Eduard Filipin təkbətək görüşü olub.

Fransanın Baş naziri ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirib və əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu deyib. Eduard Filip Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyulunda Fransaya səfərinin və səfər çərçivəsində Prezident Emanuel Makronla görüşünün ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb. Fransanın Baş naziri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirib. Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını deyib, bu şirkətlərin Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğulayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirib, bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu deyən Mehriban Əliyeva Azərbaycanda 59 fransız şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb və fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırıb. Azərbaycandakı iqtisadi inkişaf proseslərindən danışan Mehriban Əliyeva ölkəmizin Dünya Bankının "Doing Business" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasında olduğunu bildirib. Azərbaycanın Birinci vitse-prezidenti bu il hökumətlərarası komissiyanın toplantısının keçirilməsinin önəmini vurğulayıb. Humanitar, mədəniyyət, elm sahələrində əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirib ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bəyan edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirib ki, hazırkı status-kvo qəbuledilməzdir. Münaqişənin tənzimlənməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var və münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirib.

Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya"nı Azərbaycanın maliyyə naziri Samir Şərifov və Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuan imzalayıblar.

"Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" Bankı arasında Strateji Əməkdaşlıq Sazişi"ni Mərkəzi Bankın sədri Elman Rüstəmov və "Rotchild & Cie" Bankının baş direktoru Aryel Malard dö Rotşild imzalayıblar.

"Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi"ni və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə"ni "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov və "Thales International" şirkətinin baş direktoru Rafael Eskinazi imzalayıblar.

# Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavnanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Bavitlunq Vanlalvavna fəxri qarovul dəstəsinin qarşısından keçib.

Bavitlunq Vanlalvavna etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət edib.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və turizm sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Səfir Bavitlunq Vanlalvavna diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib.

Prezident İlham Əliyev səfirə ölkəmizdə fəaliyyəti müddətində uğurlar arzulayıb.

# Prezident İlham Əliyev Rusiya Yəhudi Konqresinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner səfər çərçivəsində Quba şəhərinə getdiklərini, Azərbaycanın regionlarında inkişaf proseslərinin şahidi olduqlarını, ölkəmizdə bütün xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin firavan yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğulayıb və bunu yüksək qiymətləndirib.

Azərbaycanda ayrı-ayrı xalqların və dini icmaların əsrlər boyu bir ailə kimi yaşadıqlarını deyən Prezident İlham Əliyev ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin əmin-amanlıq içərisində yaşamaları üçün lazımi şəraitin mövcud olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanda sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransaya səfərə gedib



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Fransa Respublikasına səfərə gedib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti ilə görüşü olub



Martın 11-də Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Suez Groupe" şirkəti arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.



# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb





Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşündən məmnun olduğunu deyib. Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. **"Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər",** - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar inşa etdiklərini deyən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirib, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulayıb. Mehriban Əliyeva David dö Rotşildi ölkəmizə səfərə dəvət edib.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu deyib. **"Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər"**, - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul edib.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi professor David Hayat ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 11-də Parisdə Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə onkoloji xəstəliklərin qarşısının alınması, bu sahədə təcrübə mübadiləsinin aparılması və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Həmçinin görüşdə iki ölkənin onkologiya mərkəzləri arasında sıx əməkdaşlığın qurulmasının və birgə layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

# Prezident İlham Əliyev: Həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim

## *Azərbaycanın dövlət başçısı zəlzələ baş verən bölgələrə səfərlər etməklə, tikinti, təmir-bərpa işlərini şəxsi nəzarətdə saxlamaqla növbəti dəfə verilən sözə əməl etməyin nümunəsini göstərdi*

*Xəbər verildiyi kimi, cari il fevralın 5-də və 6-da baş vermiş zəlzələlər Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törədib. Belə ki, baş verən zəlzələlər nəticəsində çox sayda fərdi ev qəzalı vəziyyətə düşüb, bir sıra sosial təyinatlı tikililərə və infrastruktur obyektlərinə ziyan dəyib. Hazırda Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən hər üç rayonda təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün intensiv şəkildə tikinti və təmir-bərpa işləri həyata keçirilir. Azərbaycanın dövlət başçısı təbii fəlakət zonasında görülən işləri ciddi nəzarətdə saxlayır. Elə bu günlərdə Prezident İlham Əliyev yuxarıda bəhs edilən Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Ağsu və Şamaxı rayonlarına səfərə gəlib. Dövlət başçısı həm Ağsuda, həm də Şamaxıda ayrı-ayrı ünvanlarda görülən işlərlə tanış olub, sakinlərlə görüşlər keçirib və Özünün dəyərli tövsiyələrini verib.*



### AZƏRBAYCAN PREZİDENTİ ÖZ İŞİNİ, VƏZİFƏSİNİ XALQA XİDMƏT ETMƏKDƏ GÖRÜR

Azərbaycanın məlum bölgələrində zəlzələlər baş verdiyi tarixdən cəmi bir aydan artıq vaxt ötməsinə baxmayaraq, Prezident İlham Əliyev artıq iki dəfə təbii fəlakət zonasına gedib. Azərbaycanın dövlət başçısının bəhs olunan son səfərləri respublikamızda uğurla reallaşdırılan dövlət siyasətinin identikliyini - bu siyasətin bilavasitə cəmiyyətdən gələn sosial sifarişlər əsasında formalaşdığını və onun əsas qayəsinin vətəndaşların arzu və istəklərinin həyata keçirilməsi, üzləşdikləri çətinliklərin operativ qaydada aradan qaldırılması olduğunu bir daha nümayiş etdirir. Praqmatik siyasətçi olan Prezident İlham Əliyev ölkə rəhbəri kimi Özünün və dövlətin sosial dayağı qismində Azərbaycan cəmiyyətini görür, məhz xalqa güvənir. Eyni zamanda, dövlət başçısı Özünün və komandasının əsas vəzifəsini də xalqa xidmət etməkdə görür. Prezident İlham Əliyev Ağsu şəhərində rayon sakinləri ilə görüşdə bunu bir daha xatırladıb. **“Mən gəlmişəm ki, problemləri həll edim. Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq”.**

Son 15 ilin təcrübəsi Prezident İlham Əliyevin Öz fəaliyyətini daim xalqla bir yerdə olmaq və xalqa ləyaqətlə xidmət etmək prinsipi əsasında qurduğunu əyani şəkildə təsdiqləyir. Ölkəmizdə aparılan praqmatik siyasət ilk növbədə xəlqi mahiyyəti ilə fərqlənir. Dövlət başçısı mütəmadi qaydada ictimaiyyətin nümayəndələri ilə görüşür, tez-tez bölgələrə səfərlərə gedir. Bu görüşlər və səfərlər isə izsiz ötüşmür. Dövlət başçısı insanları narahat edən məsələlərlə yerindəcə tanış olur, həmçinin əvvəllər verilən tapşırıqların müvafiq qurumlar tərəfindən necə icra edildiyi ilə maraqlanır. Beləliklə, bir tərəfdən nəzarət möhkəmlənir, məmurların məsuliyyəti artır, digər tərəfdən isə dövlət siyasətinin prioritetləri müəyyənləşdirilərkən yerlərdə insanların qaldırdıqları məsələlər mütləq nəzərə alınır. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyev təkcə 2018-ci ildə regionlara 24 səfər edib, bölgələrdə yerli sakinlərlə çoxsaylı görüşlər keçirib, onlarca müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılışında iştirak edib.

*“Azərbaycan dövləti öz sosial siyasətini aparmaqda israrlıdır”*

Azərbaycanda insanlarda yüksək vətəndaş məmnunluğu yaradan gözəl ənənə formalaşıb. Belə ki, Prezident İlham Əliyev həmişə qəti mövqe və siyasi iradə ortaya qoyaraq komandasının diqqətini, dövlətin resurslarını ən ümdə məsələlərə yönəldir. Bu məsələlər sırasında sosial sfera, vətəndaşlara qayğı prioritet təşkil edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda dövlət həmişə öz vətəndaşının yanında olur, onun üzləşdiyi problemlərin aradan qaldırılmasına lazımi dəstək göstərir. Bu da, təbii ki, vətəndaşlarda güclü Azərbaycan dövlətinə, şəxsən Prezident İlham Əliyevə böyük inam yaradır.

Biz bu vəhdəti cari il fevralın əvvəlində Ağsuda, İsmayıllıda və Şamaxıda baş verən zəlzələlərdən sonra da əyani şəkildə izləyirik. Azərbaycanın dövlət başçısı zəlzələ baş verən bölgələrə səfərlər etməklə, tikinti, təmir-bərpa işlərini şəxsi nəzarətdə saxlamaqla növbəti dəfə verilən sözə əməl etməyin nümunəsini göstərir. Baş verən zəlzələlər heç bir halda təbii fəlakətin acı fəsadlarını özlərinin şəxsi həyatlarında yaşayan insanları sarsıtmayıb. Çünki çətin günlərdə Azərbaycan dövləti xalqın yanında olduğunu nümayiş etdirib. Əlalxüsus da Prezident İlham Əliyevin təbii fəlakətin ertəsi günü zəlzələlərdən ziyan çəkən bölgələrə səfərə gəlməsi insanlarda sabaha böyük inam yaradıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Ağsuya, Şamaxıya son səfərləri çərçivəsində keçirilən görüşlərdə insanlar çətin günlərdə onlara dayaq duran Azərbaycan hökumətinə, şəxsən dövlət başçısına özlərinin dərin minnətdarlıqlarını ifadə ediblər. Görüşlərdə müxtəlif sosial təbəqələri əhatə edən insanların dövlət başçısına xitabən “Biz Sizi gözləyirdik, cənab Prezident” demələri olduqca təsirli və ibrətamiz məqamdır. Bu, onu göstərir ki, Azərbaycan iqtidarı, Prezident İlham Əliyev məqsədyönlü fəaliyyət sayəsində cəmiyyətin böyük etimadını qazanıb. Çətinə düşən insanlar heç kimdən yox, məhz öz dövlətindən və inandığı, ümid bəslədiyi Prezidentindən umur, kömək gözləyir. Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycanın inkişafının əsas hərəkətverici qüvvəsi də məhz bu amildir - iqtidar-xalq həmrəyliyidir. Heç bir güc, kənar təsir bu sarsılmaz vəhdəti pozmaq və yaxud ona hansısa bir formada xələl gətirmək iqtidarında deyil.

*“Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq”*

### ZƏLZƏLƏ BAŞ VERƏN BÖLGƏLƏRDƏ ÇOXLU SAYDA YENİ EVLƏR TİKİLƏCƏK

Sosial dövlət olan Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir. Belə ki, ölkəmizdə dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Təbii fəlakət baş verən bölgələrdə əhalinin zəlzələnin ziyan vurduğu əmlakının, həmçinin infrastruktur obyektlərinin dövlət vəsaiti hesabına təmir-bərpa olunması və yaxud yenidən tikilməsi deyilənlərə növbəti nümunədir. Qeyd edək ki, dünyada əhalinin zəlzələdən ziyan çəkən əmlakının dövlət vəsaiti hesabına bərpa olunması praktikası yoxdur - ayrı-ayrı ölkələrdə bu işlə sığorta şirkətləri məşğul olurlar. Vətəndaşlar təbii fəlakət zamanı əmlaklarına dəyən ziyanı bərpa etməkdən ötrü get-gələ düşürlər, bir sıra hallarda illərlə vaxt sərf etmək məcburiyyətində qalırlar. Güclü dövlət olan müstəqil Azərbaycanda isə indiyədək baş verən bütün təbii fəlakətlərin nəticələri sırf dövlət vəsaiti hesabına aradan qaldırılıb. Bu dəfə də belə oldu. Fevralın 5-də və 6-da baş verən zəlzələlərdən dərhal sonra dövlətimizin başçısı Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında Sərəncam imzalayıb. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanılıb. Zəlzələlər baş vermiş ərazinin vəziyyətinin qiymətləndirilməsi və nəticələrinin aradan qaldırılması üçün dərhal bölgəyə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları, Xüsusi Riskli Xilasetmə Xidməti, Aviasiya dəstəsi, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin və Şimal-qərb Regional Mərkəzinin şəxsi heyəti və texnikası cəlb olunub. Ümumiyyətlə, Şamaxı, İsmayıllı və Ağsu rayonlarında zəlzələnin nəticələrinin aradan qaldırılması üçün bütün zəruri tədbirlər görülür. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun könüllüləri də bu işdə yaxından iştirak ediblər. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri zəlzələdən dərhal sonra təbii fəlakətdən zərər çəkmiş ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar. Toplanmış məlumatlar Fondun rəhbərliyinə məruzə edilib. İndiyədək təbii fəlakət zonasında ziyan çəkmiş bütün evlərə baxış keçirilib və müvafiq dəyərləndirmələr aparılıb. Cari il martın 7-də isə Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” növbəti Sərəncam imzalayıb. Sərəncama əsasən, baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan cəmi 11,0 (on bir) milyon manat, o cümlədən yaşayış evlərinin, sosial və infrastruktur obyektlərinin tikintisi və onlarda bərpa-gücləndirmə işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 5,0 (beş) milyon manat, yaşayış evlərinin təmiri üçün Şamaxı, İsmayıllı və Ağsu rayon icra hakimiyyətlərinin hər birinə 2,0 (iki) milyon manat ayrılıb. Prezident İlham Əliyev vətəndaşlara təskinlik verərək deyib: **“Narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim”.**

*“Zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim”*

Ötən bir ay ərzində təbii fəlakət bölgəsində görülən işlərin miqyası kifayət qədər böyükdür. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib. Hazırda ayrı-ayrı ünvanlarda zərər çəkmiş fərdi evlərin təmiri və yaxud yeni binaların tikintisi davam etdirilir. Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun məlumatına əsasən, indiyədək Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirməsinə ehtiyac var. Təbii fəlakət nəticəsində Ağsuda 1022, İsmayıllıda 354 evin təmirinə ehtiyac yaranıb. Zəlzələlər nəticəsində İsmayıllı və Ağsu rayonları ilə yanaşı, Şamaxı rayonunda da fərdi evlərə, sosial və infrastruktur obyektlərinə ziyan dəyib. İndiyədək Şamaxıda 4893 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244 ev kəskin qəzalıdır. Onlardan da 96-sı şəhər, 35-i qəsəbələr, 113-ü isə kəndlər üzrədir. Hazırda şəhər üzrə kəskin qəzalı hesab edilmiş evlərdən 6-sı inşa olunur. Rayonda ümumilikdə 1111 evin bərpasına və gücləndirilməsinə ehtiyac var ki, onlardan da 561-i şəhərdə, 87-si qəsəbələrdə, 463-ü isə kəndlərdədir. Şamaxıda təbii fəlakətlə bağlı şəhər üzrə 866, qəsəbələr üzrə 123, kəndlər üzrə isə 811 olmaqla, ümumilikdə 1800 evin təmirinə ehtiyac var. Bütövlükdə, indiyədək sözügedən rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və yaxud sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır. Yeni tikilən evlərin sahəsi əvvəlkilərdən böyükdür. Tikinti işlərinin yüksək keyfiyyətlə aparılmasına da söz ola bilməz. Təzə evlər 9 bal gücündə zəlzələyə hesablanıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev həm Ağsuda, həm də Şamaxıda bir neçə ünvanda tikinti işlərinin gedişi ilə şəxsən tanış olub. Ağsuda Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün yeni ev inşa edilir. Tamam dağılmış evin yerində tikilən 131 kvadratmetrlik yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq və bütün işlər ən uzağı bir ay ərzində tamamlanacaq.

Prezident İlham Əliyev hələ fevralın əvvəlində Şamaxı rayonuna səfəri çərçivəsində Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus 33 nömrəli evə baş çəkmişdi. Təbii fəlakət nəticəsində ikimərtəbəli, beşotaqlı evin iki otağı tamamilə dağılmışdı və ev qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıya növbəti səfərləri zamanı yenə həmin ünvana baş çəkiblər. Aradan az vaxt ötməsinə baxmayaraq, Rasim Həsənovun ailəsi üçün yeni evin tikintisi tamam başa çatıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni inşa olunan evin sakinləri, o cümlədən də Saray nənə ilə səmimi söhbət ediblər. Saray nənə və ailənin digər üzvləri göstərilən qayğıya görə dövlətimizin başçısına və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər. Söhbət zamanı Azərbaycan dövlətinin həmişə öz vətəndaşlarının yanında olduğunu nəzərə çatdıran Prezident İlham Əliyev deyib: **“Azərbaycan dövləti Azərbaycan vətəndaşının yanındadır, onun arxasındadır və ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcək. Görülən işlər, bax, budur. Bu, birincidir. Hələ minlərlə ev tikiləcək”.**

### AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISI VƏTƏNDAŞLARI NARAHAT EDƏN BÜTÜN MƏSƏLƏLƏRƏ BÖYÜK HƏSSASLIQLA YANAŞIR

Qeyd etdiyimiz kimi, Prezident İlham Əliyev təbii fəlakət baş verən bölgələrə səfərləri çərçivəsində yerli ictimaiyyətin nümayəndələri ilə çoxsaylı görüşlərə, söhbətlərə qatılıb. Bu görüşlərdə sakinlər özlərinin problemlərini dilə gətiriblər. Öz növbəsində Azərbaycanın dövlət başçısı vətəndaşları narahat edən bütün məsələlərə böyük həssaslıqla yanaşıb. Məsələn, Ağsu sakini Həcər Zamanova 29 yaşlı nəvəsi Muradın gözünün müalicəsinə kömək üçün dövlət başçısına müraciət edib. Murad Zamanovun atası da, anası da rəhmətə gedib. Onu nənəsi saxlayıb. İndi onun gözünün biri tamam tutulub. Digər gözdə isə cəmi 3 faiz görmə qalıb. Həkimlər bildiriblər ki, Murada donor göz lazımdır. Ailənin isə donor göz almağa maddi imkanı yoxdur. Prezident İlham Əliyev Həcər Zamanovanın xahişinə çox həssaslıqla yanaşıb və onun xahişi ilə bağlı Heydər Əliyev Fonduna lazımi tapşırıqlar verdiyini nəzərə çatdırıb.

Ümumiyyətlə, Prezident İlham Əliyevin həm Ağsuda, həm də Şamaxıda keçirdiyi görüşlər maraqlı anlarla yadda qalıb. Görüşlərdə son 15 ildə Azərbaycanı inamla idarə edən, ölkəmizin ünvanına zəfərlər yazdıran dövlət başçımıza böyük inamlarını, xoş münasibətlərini ifadə edən sakinlər Ona çoxsaylı məktublar veriblər. Prezident İlham Əliyev əhalinin müxtəlif təbəqələrinin Ona ünvanladıqları məktubları əlbəəl qəbul edib. Dövlət başçısı məktubların hamısına baxılacağını bildirərək deyib: **“Bütün məktublara baxılacaq. Burada müxtəlif təkliflər, müxtəlif şikayətlər, xahişlər var. Məhkəmə işləri, evlə, işsizliklə, sosial ədalətsizliklə bağlı məktublar var. Hər bir məktuba diqqətlə baxılacaq. Xahiş edirəm məktubları mənim köməkçilərimə çatdırın. Mən özüm bunlara baxacağam və lazımi göstərişlər veriləcəkdir. Azərbaycan dövləti öz sosial siyasətini aparmaqda israrlıdır. Vətəndaşları narahat edən bütün məsələlər öz həllini tapacaq”.**

*“Azərbaycan dövləti Azərbaycan vətəndaşının yanındadır, onun arxasındadır və ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcək”*

Prezident İlham Əliyevin təbii fəlakət baş verən bölgələrə səfərlərini, keçirdiyi çoxsaylı görüşləri bir sıra nöqteyi-nəzərdən dəyərləndirmək mümkündür. Səfər zamanı diqqəti çəkən əsas məqam isə dövlət başçısının ictimaiyyətin nümayəndələri ilə görüşlərdəki açıq-aydın hiss olunan səmimiyyəti, sakinlərin qaldırdıqları məsələlərə olduqca həssas yanaşması, eləcə də insanların Prezident İlham Əliyevə öz doğmaları, yaxınları kimi isti münasibət bəsləmələri oldu.

**Mübariz ABDULLAYEV**

# Zeynal Nağdəliyev: Şamaxıda və Ağsuda Prezidentə təqdim olunan məktubların 80 faizində yeni evlər istənilir




Hər bir dövlət qulluqçusunun qarşısında vəzifə qoyulub ki, vətəndaşlar arasında olsunlar. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərlərində, o cümlədən Şamaxı və Ağsuda zəlzələdən zərər çəkmiş insanların problemləri ilə maraqlanması bunun bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev bildirib.

Prezident Administrasiyasının rəsmisi Şamaxı və Ağsuda əhali tərəfindən dövlətimizin başçısına təqdim olunan məktublarla bağlı da məlumat verib. Deyib ki, Şamaxıda və Ağsuda əhali ilə keçirilən görüşlərdə dövlətimizin başçısına təqdim olunan məktubların hamısı nəzarətə götürülüb. Bir dənə də olsun məktub və şifahi müraciət diqqətdən kənarda qalmayacaq. Həmin məktubların mütləq əksəriyyətində yeni evlər istənilir. **“Ölkəmizdə həyata keçirilən sosial siyasətin nəticəsidir ki, müraciət edən vətəndaşlar dövlətimizin başçısından hazır ev istəyirlər. Dünyanın heç bir yerində belə təcrübə yoxdur, evlər sığortalanır, dövlət bu qayğıdan kənarda qalır. Amma Azərbaycan bu siyasətlə də öndədir. Çünki Prezidentimizin dediyi kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır”,** - deyə Z.Nağdəliyev bildirib.

Zeynal Nağdəliyev qeyd edib ki, digər məktublar isə iş problemi və sosial qayğı ilə bağlıdır. Onların hər biri ciddi nəzarətə götürülüb.

# Novruz yarmarkalarında qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur

Ölkənin bütün şəhərlərində və rayon mərkəzlərində Prezident İlham Əliyevin tapşırığı ilə Novruz bayramı yarmarkaları təşkil olunub. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev paytaxtın 3-cü mikrorayonu ərazisində təşkil olunmuş yarmarkada deyib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, yarmarkaların təşkil edilməsində məqsəd vətəndaşların ucuz və keyfiyyətli məhsullarla təmin olunmasıdır.

Zeynal Nağdəliyev bildirib ki, keçən həftənin şənbə və bazar günlərində təşkil olunan yarmarkalar ilə müqayisədə məhsulların həm keyfiyyəti, həm də çeşidi baxımından xeyli irəliləyiş var. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur. Yarmarkalarda alıcılara 42 rayondan gətirilən 53 adda məhsul təqdim edilir. Novruz yarmarkalarında məhsulun çeşidi daha da artırılmalı və keyfiyyəti diqqətdə saxlanılmalıdır. Təşkil edilən bu yarmarkalar əhalinin bayram əhval-ruhiyyəsinə müsbət təsirini göstərəcək. Bu, dövlətimizin başçısının xalqımızın rifahı üçün atdığı növbəti addımdır.

Prezidentin köməkçisi deyib ki, bu məsələlərə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən çox ciddi nəzarət olunur.

# Nəsimi rayonunda növbəti Novruz yarmarkası

Martın 9-da Nəsimi rayonunun 3-cü mikrorayon ərazisində S.C.Pişəvəri küçəsi 2A ünvanında Novruz yarmarkası açılıb.

AZƏRTAC xəbər verir ki, yarmarkada respublikanın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən ucuz təklif edirlər. Məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunur. Qeyd edək ki, yarmarkada Qəbələ, Beyləqan və Cəlilabad rayonlarından gətirilən məhsullar satılır.



Dövlətimizin başçısının tapşırığına əsasən təşkil edilən bu yarmarkaların məqsədi fermerlərin, sahibkarların öz məhsullarını əlverişli şəraitdə sata bilməsi, əhalinin isə ucuz qiymətə məhsul almasıdır. Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında, süni qiymət artımının qarşısının alınmasında və istehlakçıların seçim imkanlarının artırılmasında mühüm rol oynayır.

Xatırladaq ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçirilir.

# BDU-da “Prezident İlham Əliyevin siyasəti: güclü Azərbaycan, dayanıqlı sabitlik” mövzusunda konfrans keçirilib



Bakı Dövlət Universitetində (BDU) “Prezident İlham Əliyevin siyasəti: güclü Azərbaycan, dayanıqlı sabitlik” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Lider Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Nazir müavini Ümummilli Lider Heydər Əliyevin siyasəti nəticəsində Qərbin iri neft şirkətləri ilə uğurlu danışıqlar aparılaraq 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalandığını xatırladıb. Bu sazişin, eləcə də həyata keçirilən digər böyük layihələrin müstəqil Azərbaycanın inkişafında mühüm rolunu vurğulayıb.



Firudin Qurbanov Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitliyin daha da möhkəmləndiyini, ölkənin sosial-iqtisadi inkişafının daha da yüksəldiyini qeyd edib. O, ölkə rəhbərinin şəhid ailələri, müharibə veteranları və əlilləri, məcburi köçkünlərin problemlərinin həlli, minimum əməkhaqqının, tələbələrin və doktorantların təqaüdlərinin artırılması, fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı imzaladığı sərəncamları, gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə gördüyü genişmiqyaslı işləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Prezident İlham Əliyevin daxili və xarici siyasətinin əhəmiyyətindən danışıb. Bildirib ki, müasir müstəqil Azərbaycan Respublikası daha da güclənib, dünyada söz sahibi olan dövlətə çevrilib. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, aparılan sistemli islahatlar hər bir vətəndaşın rifahının yüksəlməsinə yönəlib. Hicran Hüseynova, həmçinin ailə strategiyası layihəsi və ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər və layihələr barədə məlumat verib. Bildirib ki, Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi ilə yanaşı, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının qarşısının alınması, qadın sahibkarlığının inkişaf etdirilməsi məqsədilə mühüm dövlət sənədləri qəbul olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modelinin Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilməsi və dünyada nümunə kimi qəbul edilməsindən danışıb. Eyni zamanda, Azərbaycanın dünyada həmrəyliyin inkişafına dəstəyi, ölkəmizdə multikulturalizm və İslam həmrəyliyi, bütün dinlərin nümayəndələrinin sülh və tolerant şəraitdə yaşaması barədə fikirlərini konfrans iştirakçıları ilə bölüşüb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev, BDU-nun professoru Nuru Məmmədov, filologiya fakültəsinin tələbəsi Əliqulu Bədirli və digər çıxış edənlər də Prezident İlham Əliyev siyasətinin əhəmiyyətindən, respublikamızda gənclərə, onların təhsilinə göstərilən diqqət və qayğıdan danışıblar.

# Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib





Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yeni hərbi hissələr istifadəyə verilir, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu sahədə görülən işlərin davamı olaraq martın 9-da Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib.



Ali Məclisin Sədri təlim mərkəzində yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, təlim mərkəzi şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində bütün zəruri vasitələrlə təmin edilib. Ərazidə yeni yaşayış və xidmət binası inşa olunub, lazımi şərait yaradılıb. Binada rabitə, ideoloji, yataq, yemək və texniki otaqlar istifadəyə verilib. Təlim mərkəzində maneələr zolağı və təlim idarəetmə məntəqəsi yaradılıb, yollar çəkilib, yaşıllıq zolağı salınıb.

Səhra təlimlərinin keçirilməsi üçün ərazidə yeni düşərgə də qurulub. Düşərgədə şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün tədbirlər görülüb, yataq yerləri və məişət guşələri istifadəyə verilib. Yaradılan şərait istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirib, xidmətin təşkili ilə bağlı tapşırıqlar verib.

# Darıdağ arsenli su müalicə və istirahət kompleksi inşa olunacaq

Naxçıvanda müalicə turizminin inkişafına geniş diqqət yetirilir. Bu sahədəki imkanlardan səmərəli istifadə olunur, yeni müalicə mərkəzləri fəaliyyətə başlayır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi yaradılacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tikinti aparılacaq əraziyə gəlib, kompleksin layihəsinə baxıb.



Məlumat verilib ki, Darıdağ arsenli su dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. Ona görə də Darıdağ arsenli sudan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu məqsədlə ərazidə yeni kompleks inşa olunacaq, 4 mərtəbədən ibarət əsas korpusda hotel və xidmət sahələri yaradılacaqdır. Burada qadın və kişilər üçün ayrı-ayrı müalicə hovuzları istifadəyə veriləcək, turistlərin istirahəti üçün lazımi şərait yaradılacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinə başlanılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

# Tanınmış amerikalı jurnalistlər Azərbaycan haqqında reportajlar hazırlayacaqlar





ABŞ-ın nüfuzlu “The Washington Times” qəzetinin əməkdaşı Monika Krouli və 77WABC radiosunun aparıcısı Con Baçelor Azərbaycan haqqında reportajlar hazırlayırlar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, martın 11-də Qubaya gələn tanınmış amerikalı jurnalistlərlə rayon icra hakimiyyətində görüş keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyev Qubanın tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, rayondakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib. Bildirilib ki, ölkəmizdə milli və dini azlıqların hüquqlarının qorunmasına xüsusi diqqət yetirilir. Azərbaycandakı tolerantlıq modeli dünyaya nümunədir.

Amerikalı jurnalistlər C.Baçelor və M.Krouli Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Qonaqların diqqətinə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

“The Washington Times” qəzetinin müxbiri Monika Krouli, eyni zamanda, ABŞ-da yayımlanan FOX və ABC kanalları üçün də reportajlar hazırlayır. **“Mən bura Azərbaycan və Quba haqqında məlumatlar əldə etmək üçün gəlmişəm. Qayıtdıqdan sonra gördüklərim və öyrəndiklərim barədə məqalə hazırlayacağam. Məqaləmdə buradakı tolerantlıqdan söz açacağam. Qubada fərqli dinlərə, eyni zamanda, müxtəlif etnik qruplara məxsus insanlar uzun illərdir sülh şəraitində yaşayırlar. Bu, bütün dünya üçün maraqlı modeldir. Məqaləmdə Azərbaycanın iqtisadiyyatı və mədəniyyəti də öz əksini tapacaq”,** - deyə M.Krouli bildirib.

77WABC radiosunun aparıcısı Con Baçelor isə Azərbaycana səfəri haqqında proqram hazırlayacaq: **“Mən Nyu-York şəhərində radioda çalışıram. Azərbaycana gəlməkdə məqsədim ölkəniz haqqında proqram hazırlamaq və Amerikada yayımlamaqdır. Bu gün Quba Soyqırımı Memorial Kompleksi ilə tanış olduq. İndiyə kimi mənim bu hadisələr barədə heç bir məlumatım yox idi. Kütləvi qətliam 1918-ci ildə baş versə də, mən bu barədə heç vaxt oxumamışam”.**

Amerikalı jurnalistlər Qubada dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədəki sinaqoqda da olublar. Qonaqların diqqətinə çatdırılıb ki, buradakı yəhudilər uzun illərdir azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər buraya köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan artıq sinaqoq inşa olunub. Qırmızı qəsəbədə yəhudilərin dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir. Azərbaycanda qədimdən məskunlaşan ləzgi, tat, talış, udi, avar, xınalıq və digər çoxsaylı etnik qruplar dövlətin qayğı və himayəsini daim öz üzərlərində hiss edirlər.

Monika Krouli və Con Baçelor Qubadan sonra Qusarda da olacaqlar.

# DTX Rusiya təyyarəsinin Bakıya məcburi eniş etməsi ilə bağlı məlumat yayıb



Martın 11-də saat 14:15-də Azərbaycan Respublikasının hava məkanından keçməklə "Bəhreyn-Moskva" marşrutu üzrə uçuş edən Rusiya Federasiyasının "Uralskiye Avialinii" aviaşirkətinə məxsus "Aerobus 321" tipli təyyarədən Heydər Əliyev Beynəlxalq Hava Limanının dispetçer məntəqəsi ilə əlaqə saxlanılaraq, gövdəsində 222 sərnişinin və ekipaj üzvünün olduğu hava gəmisinin salonunda partlayıcı vasitə olmasına dair yazının aşkar edildiyi barədə məlumat verilib, təyyarə hava limanına məcburi eniş edib.

Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətindən (DTX) AZƏRTAC-a bildiriblər ki, mövcud beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, hadisə ilə əlaqədar kompleks təxirəsalınmaz prosedur tədbirlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə yaradılmış Qərargahın sədri - Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və digər aidiyyəti dövlət orqanlarının məsul şəxsləri hava limanına gəliblər.

Müvafiq tədbirlər çərçivəsində hava gəmisinin sərnişinləri və ekipaj üzvləri çevik təxliyə olunub, zəruri şəraitlə təmin edilib, psixoloji və digər yardıma ehtiyacı olanlara xüsusi diqqət göstərilib. Hüquq mühafizə orqanlarının mütəxəssislərindən ibarət əməliyyat-istintaq qrupu və xüsusi təyinatlı heyət tərəfindən texniki, kinoloji və digər vasitələrdən istifadə etməklə təyyarədə kompleks antiterror yoxlamaları aparılıb, hava gəmisinə baxış keçirilib, hadisənin səbəbi ilə əlaqədar hərtərəfli araşdırmalara başlanılıb. Nəticədə təyyarədə partlayıcı maddə və qurğuların olmadığı müəyyənləşdirilib, hadisənin səbəbi ilə bağlı əldə edilməsi təxirəsalınmaz olan məlumatlar toplanılaraq rəsmiləşdirilib.

Hazırda hava gəmisinin sərnişinləri və ekipaj üzvləri müvafiq qaydada yerləşdiriliblər. Təyyarənin ən qısa zamanda təyinat nöqtəsi üzrə uçuşu təmin ediləcək. Beynəlxalq hava limanı ştat rejimində fəaliyyətini davam etdirir.

# Hikmət Babaoğlu: Bundan sonra substantiv danışıqlar baş tutmazsa, Azərbaycan tərəfi daha radikal addımlar ata bilər



**"Ermənistanın danışıqlardan yayınmaq cəhdi baş tutmayacaq. Çünki Azərbaycan buna əsaslı imkan verməyəcək və ən son həyata keçirilən diplomatik həmlələr qısa müddətdə öz nəticələrini verməkdədir. ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatını da elə bu kontekstdə qiymətləndirmək lazımdır. Məsələ ondadır ki, işğalçı Ermənistanın baş naziri Nikol Paşinyan hələ də regiondakı geostrateji reallığa öz siyasi illüziyası ilə yanaşır və hesab edir ki, heç bir əsası olmayan arqumentlər irəli sürməklə mövcud reallığı və beynəlxalq hüququ manipulyasiya edə biləcək".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu səsləndirib.

Deputat qeyd edib ki, Paşinyanın baş nazir seçkilərində yalnız Ermənistan vətəndaşlarının iştirak etdiyi və ona görə də Dağlıq Qarabağ adından danışıqlar aparmaq səlahiyyətinin olmadığı ilə bağlı arqumenti o qədər qeyri-ciddidir ki, belə arqumentlə Ermənistanı işğal məsuliyyətindən kənarda tuta biləcəyinə heç işğalçı ölkənin özündə də inanmırlar. Bu gün Ermənistanın bütün növ qoşun birləşmələri Azərbaycanın ərazisindədir və hər erməni təxribatı zamanı Azərbaycan əsgərinin şücaəti sayəsində məhv edilən düşmən əsgəri Ermənistan vətəndaşıdır.

Paşinyanın diplomatiyada autizm-simuliyasiya deyilən xəstəliyə düçar olduğunu deyən H.Babaoğlu bildirib ki, onun iddialarına özündən başqa heç kəs reaksiya vermir. Azərbaycan Ermənistanın status-kvonu legitimləşdirmək cəhdlərinə yol verməyəcək. Bunun üçün Azərbaycan hər şeydən əvvəl öz ordusunun, öz iqtisadiyyatının gücünə və beynəlxalq nüfuzuna arxalanır. Həmsədrlərin son bəyanatı da onların regionda Azərbaycanın nəyə qadir olduğunu anlamalarından və problemin həlli ilə bağlı götürdükləri öhdəlikdən irəli gəlir.

**"BMT Təhlükəsizlik Şurası həmsədrlərə vasitəçi kimi xüsusi mandatı ona görə verib ki, problemi həll etsinlər. Yoxsa bunu Azərbaycan vasitəçilərə ehtiyac qalmadan özü edəcək. Təəssüf ki, həmsədrlər heç də hər zaman işğalçı Ermənistana lazımi təzyiq göstərmirlər və münaqişənin həlli uzanır",** - deyə Milli Məclisin deputatı əlavə edib. O bildirib ki, ATƏT-in fəaliyyətdə olan sədri və Avropa İttifaqı rəsmiləri ilə son görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev bu məsələ ilə bağlı ciddi narahatlığını bildirdi və dərhal sonra biz həmsədrlərin bəyanatının şahidi olduq. Bəyanatda bir daha bildirilir ki, danışıqların formatı dəyişdirilə bilməz və danışıqlar Helsinki Yekun aktında nəzərdə tutulan prinsiplərə söykənir. Bu prinsiplər isə ondan ibarətdir ki, xalqların öz müqəddəratını təyinetmə hüququ dövlətlərin ərazi bütövlüyünü təhdid edə bilməz. Bu bəyanat və onun məzmununda ifadə olunan fikirlər Paşinyanın populist siyasətinin iflasıdır və bundan sonra substantiv danışıqlar baş tutmazsa, Azərbaycan tərəfi daha radikal addımlar ata bilər. Belə addımlara isə işğalçı ölkə yaxşı bələddir, çünki 2016-cı və 2018-ci il hadisələrini unutmaq mümkün deyil.

# Xalid Əl-Uteybi: Küveyt Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Martın 11-də Milli Məclisin Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Hüseynbala Mirələmov ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərindən danışıb, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini deyib.

Müstəqilliyinin ilk illərində Azərbaycanın üzləşdiyi ağır ictimai-siyasi vəziyyətdən bəhs edən Hüseynbala Mirələmov qeyd edib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub.

Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid Əl-Uteybi deyib ki, Azərbaycan və Küveyt dostluğu tarixi, dərin mədəni köklərə söykənir. İki ölkə arasında iqtisadi, siyasi, mədəni sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Xalid Əl-Uteybi ticari əlaqələrin daha da genişləndirilməsinin zəruriliyini qeyd edib.

Xalid Əl-Uteybi Azərbaycanın hər zaman beynəlxalq təşkilatlar çərçivəsində Küveytin mövqeyini müdafiə etdiyini bildirərək vurğulayıb ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır.

Azərbaycanın həyata keçirdiyi beynəlxalq tədbirlərin onun dünyadakı nüfuzunu daha da artırdığını bildirən Xalid Əl-Uteybi Azərbaycanın bu uğurlarının dost Küveyt tərəfindən sevinclə qarşılandığını ifadə edib.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verib. Bildirib ki, münaqişə nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilib, bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva Kuba Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



Yeni Azərbaycan Partiyasının (YAP) Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva martın 11-də Kuba Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo ilə partiyanın mənzil-qərargahında görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb. YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva Azərbaycan və Kuba xalqları arasında keçmiş Sovet İttifaqı dövründə formalaşan isti münasibətlərin olduğunu vurğulayaraq, hazırda iki ölkə əlaqələrinin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib.

Səfir Alfredo Nieves Portuondo ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində əməkdaşlığı, həmçinin Kuba Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu ifadə edib. Səfir iki ölkənin beynəlxalq arenada bir-birinə dəstək nümayiş etdirdiyini, həmçinin Kubanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib.

Qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Gömrük Xidməti Rəhbərlərinin növbəti iclası keçirilib



Martın 11-də Qazaxıstanın paytaxtı Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Gömrük Xidməti Rəhbərlərinin 7-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanı Dövlət Gömrük Komitəsi (DGK) sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

İclasda ötən dövr ərzində görülən işlərlə bağlı üzv dövlətlərin nümayəndə heyətləri başçılarının hesabatları dinlənilib. Öz növbəsində, Azərbaycan nümayəndə heyətinin rəhbəri İ.Hüseynov bildirib ki, bu cür tədbirlərin təşkili Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük orqanlarının nailiyyətləri, yaranan problemlər və gömrük sahəsində həyata keçirilən islahatlarla bağlı məlumat, fikir mübadiləsi, eləcə də çoxtərəfli gömrük əməkdaşlığının inkişaf yollarının müzakirə edilməsi baxımından faydalıdır.

Qeyd edilib ki, mühüm yeniliklərdən biri Azərbaycan Prezidenti tərəfindən 2018-ci il dekabrın 21-də "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsidir. Məqsəd qanunvericiliyə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şəraitin yaradılması, biznesin dövlət tənzimlənməsi mexanizmlərinin səmərəliliyinin artırılması, könüllü riayət etmə mədəniyyətinin formalaşdırılması, risklərin qiymətləndirilməsi və gömrük auditi əsasında gömrük nəzarətini və rəsmiləşdirilməni daha çevik, şəffaf həyata keçirməklə fiziki gömrük yoxlamalarını minimuma endirmək, ölkənin ixrac potensialını gücləndirmək, müasir idarəetmə prinsiplərinə əsaslanan məmur-sahibkar münasibətlərini inkişaf etdirmək, mövcud ehtiyatların daha səmərəli istifadəsini təmin etməkdir.

DGK sədrinin birinci müavini İ.Hüseynov onu da əlavə edib ki, "Şərq-Qərb" və "Şimal-Cənub" kimi mühüm nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanda tranzit prosedurlarının təkmilləşdirilməsi, infrastrukturun inkişafı, eləcə də tranzit təchizat zəncirlərinin təhlükəsizliyinin davamlı təmin edilməsi vacib şərtdir. Bu məqsədlərə nail olmaq üçün ölkə rəhbərliyi gömrük orqanları qarşısında Ümumi Tranzit Proseduru haqqında Konvensiyaya qoşulmaq, eləcə də Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə əsasən gömrük tranzit sisteminin inkişafı üçün tədbirlər görmək vəzifəsini qoyub. Bu vəzifəni yerinə yetirmək üçün 2017-ci il dekabrın 5-də Osloda Azərbaycana qeyri-rəsmi müşahidəçi statusu verilib.

Bildirilib ki, Dövlət Gömrük Komitəsi Avropa İttifaqının Ümumi Tranzit Proseduru haqqında Konvensiyaya və Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi haqqında Konvensiyaya, eləcə də Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə qoşulmağı nəzərdə tutan layihəni həyata keçirir. Layihə çərçivəsində Avropa İttifaqının ekspert qrupu qanunvericilik, informasiya texnologiyaları və inzibati idarəetmə sahələrində zəruri olan tövsiyələri əhatə edən hərtərəfli təhlil aparıb.

İ.Hüseynov vurğulayıb ki, Azərbaycanın xarici ticarətinin inkişafı ilə əlaqədar qonşu dövlətlərlə mal dövriyyəsinin artması müşahidə olunur. Bununla əlaqədar, nəzərdə tutulan yeniliklərdən biri sərhəddə nəqliyyat vasitələrinin yarada biləcəyi sıxlıqların aradan qaldırılması üçün sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin keçidini tənzimləyəcək elektron növbə sisteminin yaradılmasıdır. Artıq bu sistemin tətbiq edilməsilə bağlı müvafiq işlər görülür.

Diqqətə çatdırılıb ki, Azərbaycan gömrük sistemində işin optimallaşdırılması, nəzarət mexanizminin təkmilləşdirilməsi və işin mərkəzləşdirilmiş qaydada təşkili üçün struktur islahatlarıda keçirilib. Gömrük orqanlarında mövcud kadr potensialının rasional şəkildə istifadəsi üçün əməkdaşların biliyinin qiymətləndirilməsinə də böyük önəm verilir.

DGK sədrinin birinci müavini İ.Hüseynov onu da əlavə edib ki, Türkdilli Dövlətlərin Gömrük Xidmətləri tərəfindən gömrük hüquqpozmaları ilə mübarizə sahəsində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət ayrılır. Bu baxımdan, bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının gömrük xidmətləri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanması Şuraya üzv dövlətlərin gömrük qanunvericiliyinin pozulması ilə mübarizə sahəsində əməkdaşlığının inkişafına yeni istiqamət verəcək.

Sonra iclasda İpək Yolu Təşəbbüsü və "Karvansaray" layihəsi ilə bağlı texniki görüşün və üzv dövlətlərin gömrük-sərhəd buraxılış məntəqələrinə səfərlərin təşkilinə dair müzakirələr aparılıb. Tədbir zamanı "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Həmçinin dövlət və özəl sektor arasında əməkdaşlıq, tranzit sistemlərinin sadələşdirilməsi sahəsində əlaqələrin genişləndirilməsi, müvafiq milli və beynəlxalq təşkilatlarla birgə seminarların təşkil edilməsi məsələlərinə baxılıb.

Daha sonra üzv dövlətlər tərəfindən cari ildə təşkil ediləcək təlim proqramlarının cədvəli razılaşdırılıb və "Türk Şurası Müasir İpək Yolu Ticarət Karvanının Nümayiş Turu" adlı layihə barədə təqdimat nümayiş etdirilib.

Sonda isə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin növbəti iclasının Qırğızıstanda keçirilməsi qərara alınıb.

# ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdiyi bəyanat rəsmi Yerevanın bütün iddialarının üzərindən xətt çəkir



Ermənistanın baş naziri Nikol Paşinyanın Avropaya uğursuz səfərindən sonra, ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdiyi bəyanat rəsmi Yerevanın bütün iddialarının üzərindən xətt çəkir. Hesab edirəm ki, baş verənləri daha dəqiq şəkildə dəyərləndirmək üçün danışıqlar formatının dəyişdirilməsi ilə bağlı ritorikanı iflasa uğradan sonuncu yanaşmadan - ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatından əvvəl Avropa İttifaqı rəsmilərinin açıqlamalarına diqqət çəkmək lazımdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.

O qeyd edib ki, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini Ermənistanın baş naziri ilə görüşündə ərazi bütövlüyünün mühüm amil olduğunu bildirib və qeyd edib ki, Nikol Paşinyan danışıqlarda ilkin şərt olmadan və tam şəkildə iştirak etməlidir.

E.Mirzəbəylinin sözlərinə görə, Avropa İttifaqı Şurasının sədri Donald Tusk isə Paşinyanla görüşündə bəyan edib ki, Qarabağ münaqişəsi ilə bağlı status-kvo uzun müddət belə qala bilməz və beynəlxalq hüquq normaları çərçivəsində münaqişənin siyasi həllinin tapılması vacibdir. Donald Tusk, eyni zamanda, danışıqların formatının dəyişdirilməsinin mümkün olmayacağını Paşinyanın diqqətinə çatdırıb.

Göründüyü kimi Avropa İttifaqı rəsmilərinin açıqlamalarında 3 əsas şərt nəzərə çarpır: Danışıqların formatı dəyişdirilə bilməz; münaqişə ərazi bütövlüyü prinsipi əsasında həllini tapmalıdır; status-kvo dəyişdirilməlidir. Yəni danışıqların süni şəkildə uzadılmasına zəmin yaradan heç bir iddia irəli sürülməməlidir.

O deyib: **"Bu şərtlər isə Azərbaycanın mövqeyini demək olar ki, tam şəkildə ifadə edir. Məlum olduğu kimi həmsədrlərin bəyanatında da qeyd olunur ki, danışıqların formatı heç bir halda dəyişdirilə bilməz. Eyni zamanda, həmsədrlər bəyan edirlər ki, işğal altında olan ərazilərimizin azad edilməsi və məcburi köçkünlərin öz yurd yerlərinə qayıtması danışıqların əsasını təşkil edir. Həmçinin həmsədrlərin bəyanatında deyilir ki, danışıqların təməlində Helsinki Yekun Aktının prinsipləri dayanmalıdır".**

E.Mirzəbəyli bildirib ki, Helsinki Yekun Aktının prinsipləri isə ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı amilini önə çəkir. Bütün bunlar isə sübuta yetirir ki, Ermənistanın əsassız iddialarına qarşı irəli sürülən tələblər həm Avropa İttifaqının, həm ATƏT-in Minsk qrupunun həmsədrlərinin və bütövlükdə beynəlxalq birliyin münaqişənin həllinə vahid yanaşmasıdır.

**"Şübhəsiz ki, bu yanaşmanın ortaya çıxmasında Prezident İlham Əliyevin prinsipial və qəti mövqeyi müstəsna rol oynayıb. Ermənistanın indiki şəraitdə danışıqları mövcud şərtlər çərçivəsində davam etdirməkdən başqa çıxış yolu yoxdur. Əks təqdirdə Ermənistan mövcud reallıqların doğuracağı diplomatik, iqtisadi-siyasi və hərbi nəticələrlə barışmalı olacaq",** - deyə siyasi ekspert qeyd edib.

# Azərbaycan dövləti tələbə gənclərə yüksək qayğı göstərir

*Ekspertlər hesab edirlər ki, tələbə gənclərin təqaüdlərinin artırılması onların sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, elm və təhsilə marağını daha da stimullaşdıracaq*



Məlum olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi gücünün artmasını təmin edib. Təbii ki, iqtisadi inkişaf insanların sosial rifahının yüksəlməsi ilə müşayiət olunur. Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyaraq gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə əhalinin sosial müdafiəsi üçün lazım olan hər bir şərait yaradılıb. Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.



***Pərvin Kərimzadə:*** *Bu, tələbə gənclərin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün atılan mühüm addımdır*

Ölkəmizdə davamlı olaraq əməkhaqları, təqaüdlər, sosial müavinətlərin məbləği artırılır ki, bu da insanların rifah halının daha da yüksəlməsinə xidmət edir. Fevralın 14-də Prezident İlham Əliyev tərəfindən imzalanmış Fərman və sərəncamlar da bu faktı bir daha təsdiqləyir. Qeyd edək ki, həmin gün Prezident İlham Əliyev ölkəmizdə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncam imzalayıb. Sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16000 (on altı min) vahid artırılaraq təqaüd alan tələbələrin sayı tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılacaq.

Prezident İlham Əliyevin imzaladığı digər Sərəncam isə doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi daşıyır. Dövlət başçısının "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Sərəncamına əsasən, dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin məbləği də müəyyənləşdirilib. Sözügedən Sərəncama əsasən, elmlər doktoru hazırlığı üzrə doktorantlar 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlar 180 manat, ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələr 170 manat məbləğində təqaüd alacaqlar. Həmçinin magistratura səviyyəsi üzrə təhsil alan və akademik göstəriciləri 91-100 bal olan tələbələrə 145 manat, akademik göstəriciləri 71-100 bal olan tələbələrə 120 manat, akademik göstəriciləri 51-100 bal olan tələbələrə 80 manat məbləğində təqaüd veriləcək. Bakalavriat səviyyəsində akademik göstəriciləri 91-100 bal olan tələbələrə 130 manat, akademik göstəriciləri 71-100 bal olan tələbələrə 110 manat, akademik göstəriciləri 51-100 bal olan tələbələrə 75 manat təqaüd verilməsi qərara alınıb. Orta ixtisas təhsili müəssisələrində təhsil alan və akademik göstəriciləri 91-100 bal olan tələbələr 75 manat, akademik göstəriciləri 71-100 bal olan tələbələr 60 manat, akademik göstəriciləri 51-100 bal olan tələbələr və peşə təhsili müəssisələrinin tələbələri isə 50 manat məbləğində təqaüd alacaqlar. Sərəncama əsasən, Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödəniləcək. Bu Sərəncamın 1.1-ci və 1.4-cü bəndləri ilə müəyyən edilmiş təqaüdlər yalnız dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara və peşə təhsili müəssisələrinin tələbələrinə ödəniləcək. Təqaüdlərin ödənilməsi, doktorantura pilləsində, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində dövlət sifarişi və dövlət hesabına təhsil alanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçiriləcək.

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmana əsasən isə, ölkəmizdə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 210 (iki yüz on) manat müəyyən edilib.

Qeyd edək ki, ölkəmizdə tələbə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, elmi fəaliyyətin stimullaşdırılması və təşviqi istiqamətində atılan addımlar Azərbaycan cəmiyyətində çox yüksək qiymətləndirilir. Məsələ ilə bağlı Gəncə Dövlət Universitetinin prorektoru, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Pərvin Kərimzadə bildirib ki, Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyaraq gələcəyə doğru inamla addımlayır. Onun sözlərinə görə, sosial rifahın yüksəlməsi üçün də lazım olan hər bir şərait yaradılıb: **"Sosial siyasət sahəsində əldə olunan uğurlardan bəhs edərkən son vaxtlar ölkə Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə atılan addımları xüsusi vurğulamaq yerinə düşər. Belə ki, dövlət başçısının şəhid ailələrinin üzvləri ilə görüşməsi, torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailə üzvlərinə, onların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Fərmanın imzalanması, şəhid ailələri üçün Prezident təqaüdünün məbləğinin artırılması, minimum əməkhaqqının artırılması məhz ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin əhəmiyyətini bir daha təsdiqləyir".**



***Şahin İsmayılov:*** *Ölkə Prezidentinin imzaladığı Fərman və sərəncamlar tələbə gənclərimizə böyük qayğının daha bir nümunəsidir*

Millət vəkili qeyd edib ki, dövlət başçısının imzaladığı Fərman və sərəncamlar tələbə gənclərin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün atılan növbəti mühüm addımdır. **"Bununla yanaşı, bu sərəncamlar təhsilin inkişafına daha da təkan verəcək, gənclərin elm sahəsinə marağının artmasını stimullaşdıracaq. Hazırda Azərbaycanda mühüm prioritetlərdən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafı istiqamətində də davamlı işlər görülür. Ölkəmizdə hər bir sahədə müşahidə olunan dinamik inkişaf bu sektorda da aşkar şəkildə nəzərə çarpır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində, eləcə də müvafiq göstərişləri əsasında atılan addımlar, icra edilən proqramlar təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirib. Bu baxımdan, dövlət başçısının imzaladığı sözügedən sərəncamlar da böyük əhəmiyyət kəsb edir"**, - deyə P.Kərimzadə vurğulayıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov isə bildirib ki, ölkəmizdə əməkhaqları, pensiya təminatı sahəsində ciddi islahatlar aparılır. Həmçinin, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün geniş proqramlar icra olunur, sosial sahə ilə bağlı çoxsaylı qanunlar qəbul olunub. Onun sözlərinə görə, dövlət başçısının vurğuladığı kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır: **"Təbii ki, bu gün ölkəmizdə gənclərin yüksək təhsil almaları üçün bütün imkanlar yaradılıb. Bu gün təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusi qeyd edilməlidir. Bütün bunlar gənclərimizin gələcəyi üçün çox önəmli addımlardır. Ölkə Prezidentinin imzaladığı sözügedən Fərman və sərəncamlar da tələbə gənclərimizə böyük qayğının nümunəsidir. Tələbə gənclərimiz bu qayğı nəticəsində öz bilik və bacarıqlarını daha da artırmalı, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər".**

**Nardar BAYRAMLI**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

# Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın xarici siyasəti milli maraqlar üzərində qurulub

*Dünyada böyük etimad qazanan ölkəmizin strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır*



Müasir dövrdə beynəlxalq münasibətlər sistemində çox ciddi dəyişikliklər müşahidə edilir. Qloballaşma prosesinə paralel olaraq baş verən bu geostrateji dəyişikliklərin fonunda bir sıra regionlarda xaos, qarşıdurma kimi dağıdıcı proseslər cərəyan edir, bu isə müxtəlif ölkələrin qeyri-sabitlik, iqtisadi tənəzzül və ciddi maliyyə problemləri ilə qarşı-qarşıya qalmasına səbəb olur. Dünyanın çoxsaylı ziddiyyətlərlə müşayiət olunan bu cür qeyri-müəyyən mənzərəsi milli dövlətlərin öz maraqlarını qorumaq, inkişafa nail olmaq üçün səmərəli, məqsədyönlü daxili və xarici siyasət yürütməsini zəruri edir. Şübhəsiz ki, strateji inkişaf planına və milli tərəqqi strategiyasına malik olan dövlətlər yeni iqtisadi perspektivlər formalaşdıra, davamlı inkişaf üçün əlverişli zəmin yarada bilirlər. Bununla yanaşı, yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən xarici siyasət kursunun səmərəliliyindən asılıdır. Səmərəli və praqmatik xarici siyasət kursu milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə malik olan dövlətlər beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə regional güc mərkəzi olan Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Sirr deyil ki, Cənubi Qafqaz regionunun lider dövləti olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, eləcə də 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin yüksək beynəlxalq nüfuzunun göstəricisidir. Yeri gəlmişkən, fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında çıxış edən Prezident İlham Əliyev bu məqamlara toxunaraq deyib: **"Bizim dünyadakı rolumuzu və bizə olan münasibəti əks etdirən çox parlaq bir nümunə var. Bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Yəni bu da beynəlxalq aləmin mütləq əksəriyyətidir. Azərbaycana göstərilən hörmət, rəğbət, dəstək bu səsvermədə özünü büruzə verdi".**

Ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bütövlükdə, Azərbaycanın xarici siyasətinin səciyyəvi xüsusiyyəti budur ki, bu strateji kurs ölkəmizin milli maraqlarına əsaslanır və müstəqil xarakter daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də "Real" televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibəsində bu məqamlara toxunaraq deyib ki, bəzi xarici mətbu orqanlarda, ekspert cəmiyyətlərində belə bir fikir söylənir ki, Azərbaycan balanslaşdırılmış, tarazlaşdırılmış siyasət aparır və elə bil ki, bu regionda balans axtarır: **"Bu, belə deyil. Biz balans axtarmırıq. Biz, sadəcə olaraq, xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq".**

Bunlarla yanaşı, Azərbaycan regionda, eləcə də beynəlxalq səviyyədə əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Regional güc mərkəzi olan ölkəmizin təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələrin əhəmiyyəti və nəticələri deyilənlərin əyani təsdiqidir. Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyada nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

Azərbaycanın xarici siyasətinin digər səciyyəvi xüsusiyyətlərindən biri budur ki, ölkəmiz region ölkələri ilə, işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə qarşılıqlı hörmət, bərabərhüquqlu və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurub. Region ölkələri ilə münasibətlərin inkişafı bütövlükdə regionun tərəqqisi, həmçinin bölgədə sülhün və təhlükəsizliyin təmin olunması baxımından strateji əhəmiyyətə malikdir. Eyni zamanda, qlobal əhəmiyyətli transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan regionda ikitərəfli, üçtərəfli, hətta dördtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqurudur. Müxtəlif regional əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü ilə yaranıb və səmərəli fəaliyyət göstərir. Dövlətimizin başçısı bəhs olunan müsahibədə bu məqamlara toxunaraq: **"Biz bu coğrafiyada, bu regionda yaşayırıq. Əlbəttə ki, qonşularla əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır, hər bir ölkə üçün. Mən hesab edirəm ki, hər bir ölkə istəyər ki, onun qonşuluğunda dost bir ölkə olsun. Biz son illər ərzində bütün qonşularla, - təbii ki, Ermənistan istisna olmaqla, - dostluq münasibətlərimizi daha da gücləndirmişik, yeni səviyyəyə qaldırmışıq. Həm ikitərəfli formatda, həm də bizim təşəbbüsümüzlə qonşularla artıq üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatı mövcuddur. Onu da bildirməliyəm ki, bunun təşəbbüskarı da Azərbaycandır"**, - deyə diqqətə çatdırıb.

Şübhəsiz ki, bütün bunların qanunauyğun nəticəsi olaraq dünyada böyük etimad qazanan ölkəmizin strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Ölkəmiz ilə əməkdaşlığın geosiyasi və geoiqtisadi perspektivləri nöqteyi-nəzərindən əhəmiyyəti dividendlər və ediyini bildirən ekspertlər bu kontekstdə bir sıra mühüm məqamları diqqətə çatdırırlar. Öncəliklə vurğulanır ki, Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal işbirliyinə, beynəlxalq təhlükəsizliyə xidmət edən yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir. Bu gün Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə, beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan aparıcı dövlətlərdəndir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə milli dövlətlərin, o cümlədən güc mərkəzlərinin uzunmüddətli perspektiv üçün əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir. Ekspertlərin vurğuladıqları digər mühüm məqam odur ki, ölkəmizin əlverişli coğrafi mövqedə yerləşməsi, azad bazar iqtisadiyyatına malik olması, xarici investorların fəaliyyətinə geniş şərait yaratması, beynəlxalq nüfuzunun davamlı olaraq artması, praqmatik xarici siyasət həyata keçirməsi və digər amillər dünya dövlətlərini respublikamızla əməkdaşlığa cəlb edən mühüm strateji faktorlar sırasında yer alır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır: **"Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik".**

Bunlarla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş imicinə sahib olan Azərbaycan həm də beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Ölkəmiz mötəbər beynəlxalq təşkilatın tribunasından səmərəli istifadə edərək reallıqları, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır, sözügedən məsələni daim aktual mövzu olaraq gündəmdə saxlayır.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycanın xarici siyasət kursunun ən mühüm strateji prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Azərbaycan bu istiqamətdə qətiyyətli mövqeyini və çoxşaxəli fəaliyyətini davam etdirir. Ölkəmizin qəti və birmənalı - konkret mövqeyi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

O da qeyd edilməlidir ki, Azərbaycanın prinsipial mövqeyinin və qətiyyətli siyasətinin fonunda beynəlxalq səviyyədə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyi mütəmadi olaraq bəyan edilir. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı fundamental və zəruri qətnamələr qəbul edilib. Qısacası, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prinsipial siyasətin nəticəsi kimi, beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir, bu mövqe ardıcıl olaraq daha da güclənir.

**Nurlan QƏLƏNDƏRLİ**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

# Azərbaycanda ictimai-siyasi sabitlik, inkişaf və vətəndaş həmrəyliyi möhkəm əsaslar üzərində qurulub



***Milli Məclisin deputatı Cavid Osmanov www.yap.org.az saytına müsahibə verib:***

**- Cavid müəllim, məlum olduğu kimi, ölkəmizdə davamlı olaraq islahatlar həyata keçirilir. Bu islahatların əhəmiyyəti nədən ibarətdir?**

- Ümumiyyətlə, Azərbaycanın inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Ölkəmizdə prioritet sahələrin üstün inkişafının təmin edilməsinə hesablanan islahatlar həyata keçirilərkən mütləq qlobal miqyasda meydana çıxan yeni çağırışlar nəzərə alınır, eyni zamanda, mövcud daxili potensial və cəmiyyətin sosial sifarişləri əsas götürülür. Belə bir rasional vəhdətin təmin edilməsi öz növbəsində islahatların uğurla həyata keçirilməsini və bunun nəticəsi olaraq respublikamızın bütün istiqamətlərdə böyük uğurlara imza atmasını şərtləndirir.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev son 15 ildə ölkəmizdə islahatlar kursunu daha da dərinləşdirib. 2003-cü ildən bəri Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ölkənin inkişafının ardıcıllığını təmin etmək, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini gücləndirmək məqsədilə yeni nəsil iqtisadi islahatlar həyata keçirilir. Aparılan islahatlar indiki şəraitdə Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açan fundamental faktorlar qismində çıxış edir.

Bilirsiniz ki, son 15 ildə həyata keçirilən müxtəlif təşviq tədbirləri, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox artıb ki, bu da dünya üzrə rekord göstəricidir. Əlamətdar haldır ki, son illərdə milli iqtisadiyyatımızda neftdənkənar sektorun xüsusi çəkisi getdikcə artır. Hazırda ölkəmizdə ÜDM istehsalında qeyri-neft sektorunun xüsusi çəkisi 70 faizi ötüb.

Respublikamızda reallaşdırılan islahatların mühüm bir bloku institusional sferanı əhatə edir. 2019-cu ilin əvvəlindən ölkəmizdə struktur islahatları Prezident İlham Əliyevin siyasi iradəsi əsasında daha aktiv fazaya daxil olub. Dövlət başçısı tərəfindən 14 yanvar 2019-cu il tarixində və ondan sonrakı günlərdə struktur islahatları istiqamətində mühüm qərarlar qəbul edilib. Reallaşdırılan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Bu islahatlar artıq müsbət nəticələrini göstərməkdədir.

**- Son vaxtlar sosial sahədə də mühüm addımlar atılmaqdadır. Bu fakt Azərbaycanı sosial dövlət kimi necə səciyyələndirir?**

- Ölkəmizdə sosial inkişaf baxımından mühüm addımlar atılır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasətinin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayanır. Bu gün ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox ciddi tədbirlər görülür. Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Bir sözlə, sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır.

Sosial sahədə əldə olunan uğurlardan danışarkən, son vaxtlar ölkə Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə atılan addımları xüsusi vurğulamalıyıq. Belə ki, dövlət başçısının şəhid ailələrinin üzvləri ilə görüşməsi, torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailə üzvlərinə, onların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Fərmanın imzalanması, şəhid ailələri üçün Prezident təqaüdünün məbləğinin artırılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün qəsəbələrin tikintisi, minimum əməkhaqqının, minimum pensiyanın artırılması məhz ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin əhəmiyyətini bir daha təsdiqləyir.

Bundan başqa tələbə gənclərin də təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı.

Ölkəmizdə davamlı olaraq əməkhaqları, təqaüdlər, sosial müavinətlərin məbləği artırılır ki, bu da insanların rifah halının daha da yüksəlməsinə xidmət edir.

25 fevral 2019-cu il tarixində isə Prezident İlham Əliyev "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" növbəti Sərəncam imzalayıb. Sənəddə də vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir.

Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bütövlükdə, 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Azərbaycan hakimiyyətinin yürütdüyü belə dərinməzmunlu sosial siyasət, həqiqətən də, inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür.

**- Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının imzaladığı Fərman da vətəndaşlar tərəfindən çox yüksək dəyərləndirilir...**

- Cənab Prezident İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq. Bu və digər faktlar bir daha Azərbaycan dövlətinin sosial mahiyyətini ifadə edir. Bu mənada Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman da vətəndaşların problemlərinin həllinə dövlətin diqqəti baxımından böyük əhəmiyyət kəsb edir. Cənab Prezident İlham Əliyevin fiziki şəxslərin problemli kreditlərinin həllinə dair Fərmanı dövlətin hər zaman öz vətəndaşının yanında olduğunun, onun problemlərinin həllini daim diqqətdə saxladığının əyani ifadəsidir.

Bu məsələ gündəmin əsas mövzularından biri olaraq qalır. Həm rəsmi qurumlar, həm də mütəxəssislər bu məsələnin sosial əhəmiyyəti haqqında fikirlərini bildirirlər. Əsas məsələ budur ki, vətəndaşlar dövlət başçısının qərarını məmnunluqla qarşılayırlar.

**- Cavid müəllim, Azərbaycanın nailiyyətlərinə, sosial sahədə atılan mühüm addımlara rəğmən müəyyən dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır. Buna münasibətiniz necədir?**

- Təəssüf ki, belə hallar mövcuddur. Azərbaycan inkişaf etdikcə, gücləndikcə bundan qıcıqlanan dairələr ölkəmizə qarşı müxtəlif qarayaxma kampaniyasına başlayırlar. Xarici dairələr bu prosesdə daxildəki radikal müxalifətdən alət kimi istifadə edirlər.

Hər bir ölkədə sağlam müxalifətin olması yaxşı bir haldır. Çox təəssüflər olsun ki, Azərbaycanda özlərini müxalifət adlandıranlar radikaldırlar. Dövlətə, xalqa xidmət etmək onların ağıllarının ucundan belə keçmir. Onların hakimiyyət dövrünü də görmüşük. Onların hakimiyyəti dövründə ölkədəki xaotik vəziyyəti, sosial-iqtisadi tənəzzülü, torpaqlarımızın 20 faizinin işğalını da yaxşı xatırlayırıq.

Radikal müxalifət bəzi xarici qurumların, eyni zamanda erməni lobbisinin vəsaiti hesabına ölkəni anarxiyaya, xaosa aparmaq istəyir. Onların missiyası yalnız bundan ibarətdir.

Eyni zamanda qaçıb xaricdə gizlənən bir qrup radikal müxalifətçi isə sosial şəbəkələri söyüş meydanına çeviriblər. Bu isə mənəviyyatsızlıqdır. Əslində, görünən odur ki, onların Azərbaycan xalqına heç bir dəxli yoxdur. Onlar manqurtlaşmış satqınlardır.

Bu dairələrin məqsədi ölkəmizdə sabitiyi pozmaqdır. Amma buna Azərbaycan dövləti və xalqı heç zaman imkan verməyəcək. Ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür. Mən millət vəkili kimi seçicilərimlə görüşürəm. Eyni zamanda, rəhbərlik etdiyim Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının fəalları insanların arasında olurlar. İnsanlar ölkəmizin inkişafından, həyata keçirilən sosial addımlardan çox razıdırlar və dövlətimizin başçısının siyasətini birmənalı şəkildə dəstəkləyirlər. Bu günlərdə cənab Prezidentin Ağsu və Şamaxı rayonlarına səfəri zamanı xalqın dövlətimizin başçısına olan inam və sevgisinin nə qədər güclü olduğu bir daha təsdiqləndi.

Eyni zamanda, gənc nəsil əsl vətənpərvər, dövlətinə sadiq vətəndaşlar kimi formalaşır. Buna görə də ölkəmizdə qarışıqlıq yaratmaq istəyənlər anlamalıdırlar ki, Azərbaycanda sabitlik, inkişaf və vətəndaş həmrəyliyi möhkəm əsaslar üzərində qurulub və bunu heç bir qüvvə sarsıda bilməz.

# Kamal Abdullanın pyesi əsasında hazırlanan tamaşa festivalın qalibi olub



Martın 10-da Azərbaycan Teatr Xadimləri İttifaqında "Boş məkanın dolğunluğu-2" eksperimental tamaşalar festivalının qalibi müəyyən olunub. Akademik Milli Dram Teatrının mətbuat xidmətindən verilən məlumata görə, festivalın qalibi yazıçı Kamal Abdullanın "Bir, iki - bizimki!" pyesi əsasında hazırlanan eyniadlı tamaşa olub.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində gənc rejissor Əlif Cahangirlinin quruluşunda hazırlanan tamaşanın rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq rejissoru Rafael Həsənov, səs rejissoru Şahanə Səlimova, rejissor assistenti Nərmin Camalovadır.

Tamaşanın bədii rəhbəri Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətovdur.

Rollarda Əməkdar artist Ayşad Məmmədov, aktyorlar İlahə Həsənova, Ziya Ağa, Xədicə Novruzlu və Canəli Canəliyev çıxış edirlər.

Mükafatlandırma mərasimində tamaşada iştirak edən aktyorlar səhnəyə dəvət olunub, onlara Xalq artistləri Hacı İsmayılov və Ramiz Fətəliyev tərəfindən xüsusi diplom və pul mükafatı təqdim olunub.

Qeyd edək ki, "Bir, iki - bizimki!" tamaşası martın 9-da festival çərçivəsində Akademik Milli Dram Teatrında nümayiş olunub. Sonra teatrşünaslardan, mədəniyyət yazarlarından ibarət ekspert qrupunun və tamaşanın yaradıcı heyətinin iştirakı ilə müzakirə keçirilib, səhnə əsəri son illərin ən uğurlu tamaşalarından biri kimi dəyərləndirilib.

Azərbaycan Teatr Xadimləri İttifaqının Mədəniyyət Nazirliyi ilə birlikdə təşkil etdiyi festival mərhum rejissor Vaqif İbrahimoğlunun xatirəsinə həsr olunub. Festivalda 9 gün ərzində ölkəmizin 7 müxtəlif dövlət, bələdiyyə, müstəqil teatrı, həmçinin ADMİU-nun müəllim-tələbə heyəti və bir Gürcüstan teatrı tərəfindən ümumilikdə 18 tamaşa təqdim olunub.

**MÜŞFİQƏ**

# Kibertəhlükəsizlik həlləri üzrə beynəlxalq seminar öz işinə başlayıb





Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tərəfindən təşkil edilən beynəlxalq "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində martın 11-də "Microsoft" şirkəti tərəfindən "Kibertəhlükəsizlik həlləri üzrə seminar" keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, seminarın məqsədi kibertəhlükəsizlik sahəsində çalışan mütəxəssislərin maarifləndirmə səviyyəsinin artırılması və "Microsoft"un qabaqcıl bulud həlləri vasitəsilə təhlükəsizlik imkanlarının genişləndirilməsidir. Tədbirdə "Microsoft Azure" və "Microsoft 365" məhsulları, onların təhlükəsizlik meyarları barədə ətraflı məlumat verilib.

Seminarda biznes, diplomatik korpusun səlahiyyətli nümayəndələri, elm və vətəndaş cəmiyyətinin, internet ictimaiyyətinin mütəxəssisləri iştirak ediblər.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə tədbirdə çıxışında bildirib ki, dünyanın sürətlə inkişaf edən ölkələrindən biri kimi Azərbaycanda da müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi bu sahədə davamlı kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsini gündəmə gətirib.

Nazir müavini qeyd edib ki, bu sahədə hüquqi bazanın formalaşdırılması istiqamətində Azərbaycan beynəlxalq konvensiya və proqramlara qoşulub, daxili qanunvericilik bazasını daha da təkmilləşdirib: **"Respublikada informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, kibertəhlükəsizlik sahəsində risklərin idarə olunması koordinasiyalı şəkildə həyata keçirilir. Bunu nəzərə alaraq, digər aidiyyəti qurumları da cəlb etmək şərtilə ölkəmizdə ilk beynəlxalq "Kibertəhlükəsizlik həftəsi"nə start verilib".**

"Microsoft" şirkətinin MDB ölkələrində kibertəhlükəsizlik və lisenziya uyğunluğu üzrə direktoru Dmitri Beresnev deyib ki, bu gün kibertəhlükəsizlik, onlayn təhlükəsizlik, şəbəkələrin etibarlılığı üçün həlledici təminat məsələləri ən mühüm prioritet istiqamətlərdən biri kimi dəyərləndirilir.

**"Bu sahədə effektiv beynəlxalq əməkdaşlıq, çoxtərəfli dialoqun nailiyyəti, uğurlu qərarların qəbulu və bu qərarların həyata keçirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Ümumiyyətlə, kibertəhlükəsizlik çox geniş, aktual məsələdir. Azərbaycan dövləti bu sahədə mövcud olan boşluqları və təhlükələri vaxtında dəyərləndirərək müvafiq addımlar atıb",** - deyə D.Beresnev bildirib.

Daha sonra "Microsoft"un kibertəhlükəsizlik haqqında analitik hesabatı təqdim edilib.

Mütəxəssislər kibertəhlükəsizliyin mərkəzləşdirilmiş monitorinqi, korporativ mobil qurğuların kibermüdafiəsi, login və parolların kibermüdafiəsi, arzuolunmaz tətbiqlərdən və onlayn xidmətlərdən mühafizə üsulları ilə bağlı geniş təqdimatlarla çıxış ediblər.

Həmçinin, yerli iştirakçıların beynəlxalq mütəxəssislərlə təcrübə mübadiləsi və əməkdaşlıq qurması, bu sahədə mövcud vəziyyətin, qarşıya qoyulmuş vəzifələrin, müvafiq xarici strukturlara inteqrasiya məsələlərinin birgə müzakirəsi aparılıb.

Qeyd edək ki, kibertəhlükəsizlik sahəsində səmərəliliyin və maarifləndirmə səviyyəsinin artırılması və texniki hazırlığın yüksəldilməsi məqsədilə Azərbaycanda martın 11-dən 15-dək "Microsoft" şirkətinin dəstəyi ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Kibertəhlükəsizlik həftəsi" keçirilir.

# Ermənistanın məsuliyyətdən yayınmaq və danışıqlar prosesini pozmaq cəhdləri baş tutmayacaq

*ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatında ifadə olunan fikirlər Paşinyanın populist siyasətinin iflasını göstərir*



Azərbaycanın xarici siyasət kursunun ən mühüm strateji prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllidir. Ölkəmiz bu istiqamətdə qətiyyətli mövqe nümayiş etdirir. Bu mövqe ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın həyata keçirdiyi milli maraqlara əsaslanan siyasət və hücum diplomatiyası bölgədə yeni reallığın yaranmasına səbəb olub. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin formalaşdırıb. Digər tərəfdən, Azərbaycanın qətiyyətli mövqeyinin fonunda beynəlxalq müstəvidə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruriliyi bəyan edilir. Yəni beynəlxalq ictimaiyyət bu münaqişənin həlli ilə bağlı Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir, bu mövqe ardıcıl olaraq daha da güclənir. Qeyd etdiyimiz kimi, son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin əyani ifadəsidir.

Bütün bunlara baxmayaraq, Ermənistanın qeyri-konstruktiv mövqe ilə danışıqlar prosesini pozmağa çalışması heç kəsə sirr deyil. Bu ölkə tərəfindən danışıqların formatının dəyişdirilməsi ilə bağlı absurd iddiaların ortaya atılması məhz bu məqsədə xidmət edir. Ermənistanın yeni rəhbərliyi indiyə qədər müxtəlif formalarda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ziddiyyətli bəyanatlar səsləndirib, bu məsələ ilə əlaqədar beynəlxalq qanunvericiliyin tələblərinə uyğun olmayan çıxışlar edib. Təbii ki, bütün bunlar yolverilməzdir, qəbul edilmir. ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatı da bu baxımdan xüsusi vurğulanmalıdır.

Əlbəttə, Azərbaycan Ermənistanın status-kvonu legitimləşdirmək cəhdlərinə imkan verməyəcək. Hər şeydən əvvəl, ölkəmiz öz iqtisadi və hərbi qüdrətinə, yüksək beynəlxalq nüfuzuna güvənir. Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək qüdrətindədir. Ona görə də Ermənistan rəhbərliyi reallıqları düzgün dəyərləndirməli, danışıqlar prosesinə xələl gətirən absurd iddialar səsləndirməkdən çəkinməli, qeyri-konstruktiv mövqe nümayiş etdirməməlidir.

Bununla yanaşı, bir məqama da xüsusi diqqət yetirmək lazımdır. Belə ki, işğalçı siyasətini davam etdirən, qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistana qarşı təzyiq edilməsi zərurətdir. Çünki ortada işğal faktı var və mövcud status-kvo qəbuledilməzdir. Elə münaqişənin həlli ilə bağlı vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun işğalçı Ermənistana təzyiq etməsi olduqca vacibdir. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri və Avropa İttifaqı rəsmiləri ilə son görüşlərdə bu məsələ ilə bağlı ciddi narahatlığını ifadə etdi. Bundan dərhal sonra həmsədrlər bəyanatla çıxış etdilər. ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatında bildirilir ki, danışıqların formatı dəyişdirilə bilməz və danışıqlar Helsinki Yekun aktında nəzərdə tutulan prinsiplərə söykənir. Yəni xalqların öz müqəddəratını təyinetmə hüququ dövlətlərin ərazi bütövlüyünü təhdid edə bilməz. Bir sözlə, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Bütövlükdə, Ermənistanın məsuliyyətdən yayınmaq və danışıqlar prosesini pozmaq cəhdləri baş tutmayacaq. ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatı Paşinyanın populist siyasətinin iflasa uğradığını göstərir. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır, danışıqların formatının dəyişdirilməsinə dair səsləndirilən absurd iddialar qəbuledilməzdir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ədliyyə Akademiyasında "Probasiya xidmətinin yaradılması, qarşıda duran vəzifələr" mövzusunda seminar keçirilib



Martın 11-də Ədliyyə Akademiyasında Mətbuat Şurası ilə birgə "Probasiya xidmətinin yaradılması, qarşıda duran vəzifələr" mövzusunda seminar keçirilib. Seminarda Ədliyyə Nazirliyinin və Mətbuat Şurasının məsul şəxsləri, vətəndaş cəmiyyətinin nümayəndələri, jurnalistlər, ASAN könüllüləri, SABAH qrupları və hüquq fakültəsinin tələbələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov Ədliyyə Nazirliyinin fəaliyyətinin hər zaman şəffaflıq və aşkarlıq prinsipləri əsasında qurulduğunu, ictimai iştirakçılığa, kütləvi informasiya vasitələri ilə qarşılıqlı fəaliyyətə böyük önəm verdiyini vurğulayıb, onların nazirliyin maarifləndirmə işlərində fəal iştirakının əhəmiyyətini qeyd edib, tədbirin məqsədlərindən danışıb.

Nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova və Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev çıxış edərək Ədliyyə Nazirliyi ilə media orqanları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, ədliyyə fəaliyyəti barədə əhalinin mütəmadi və daha geniş şəkildə məlumatlandırılmasının vacibliyini vurğulayıblar.

Sonra Probasiya xidmətinin rəis müavini Musa Hümbətov çıxış edərək cəza siyasətinin humanistləşdirilməsinə dair Prezident İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılan Probasiya xidmətinin fəaliyyəti barədə məlumat verib, qısa müddətdə bu sahədə işin müasir tələblər səviyyəsində səmərəli təşkili ilə bağlı xeyli işlərin görüldüyünü, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqini vurğulayıb.

Tədbirdə Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti ilə bağlı video-çarx nümayiş etdirilib. KİV nümayəndələri elektron nəzarət vasitələrinin imkanları və tətbiqi xüsusiyyətləri ilə tanış olublar.

Sonda Probasiya xidmətinin yaranması və inkişafı, bu sahədə əldə olunan nailiyyətlər və xidmətin gələcək perspektivlərinə dair jurnalistlərin sualları cavablandırılıb.

**NURLAN**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Ölkəmizin regionlarında quruculuq işləri uğurla davam edir

*Bu uğurlar Qax, Zaqatala, Balakən və Şəki rayonlarında da özünü əyani şəkildə göstərir*




Məlum olduğu kimi, Azərbaycan ötən dövr ərzində dinamik inkişaf baxımından dünyada öncül sıralardadır. Ölkəmizdə uğurla reallaşdırılan sosial-iqtisadi siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edib. Bu inkişafda isə 2004-cü ildən etibarən reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının xüsusi payı var. Çünki məhz bu proqramlar çərçivəsində atılan addımlar respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını təmin edib. Eyni zamanda, onu da vurğulamaq yerinə düşər ki, respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın icrası da yüksək səviyyədə təmin olunub. Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla isə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqlənib. Yeri gəlmişkən, dövlət başçısı cari il yanvarın 29-da keçirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizin inkişafı baxımından üçüncü Dövlət Proqramını yüksək qiymətləndirib: **"Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək".**

Beləliklə, görünən odur ki, Azərbaycanda 2004-cü ildən etibarən böyük uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını artırmaqla yanaşı, hər bir rayonda əldə edilən uğurlarla müşayiət olunub. Və 2018-ci ildə də davam edən bu uğurlardan ölkəmizin şimal bölgəsinə daxil olan Qax, Zaqatala, Balakən və Şəki rayonlarına da pay düşüb.

2018-ci ildə Qax rayonunda ənənəvi istehsal sahələrindən olan tütünçülüyün, baramaçılığın və fındıqçılığın inkişafı ilə bağlı tədbirlər davam etdirilib. Ötən il rayonda tütün əkini sahələri əvvəlki illə müqayisədə 17,5 hektar artırılaraq 623,5 hektara çatdırılıb. Hesabat ilində rayonda 971,8 ton quru tütün istehsal edilib. Tütün istehsalı əvvəlki illə müqayisədə 161,5 ton artıb. Qaxlı fermerlər tütün satışından 1,5 milyon manatdan çox gəlir əldə ediblər. Ötənilki mövsümdə rayonda 25,3 ton, yəni əvvəlki ildəkindən 2 dəfə çox yaş barama istehsal edilib. Rayon ərazisində 601 hektar sahədə yeni fındıq bağları salınıb. Bu barədə Qax rayonunda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan yığıncaqda məlumat verilib.

Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev hesabat məruzəsində deyib ki, 2018-ci il Qax rayonu üçün Prezident İlham Əliyevin rayona növbəti səfəri ilə əlamətdar və yaddaqalan olub. Oktyabrın 28-də reallaşan səfər zamanı dövlətimizin başçısı Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun, "Yurd Hotel" mehmanxanasının, "Ulu Aqro" MMC-nin Qax Aqroparkının və yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasının açılışlarında iştirak edib. Diqqətə çatdırılıb ki, 2018-ci ildə rayonda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının ümumi həcmi əvvəlki illə müqayisədə 2,3 faiz artaraq 157 milyon 478 min manat olub. Hesabat dövründə rayonda 12 milyon 126 min manatlıq sənaye, 53 milyon 848 min manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib, 49 milyon 804 min manatlıq tikinti işləri görülüb. Sənayedə məhsul istehsalı 2017-ci illə müqayisədə 2,2 faiz, kənd təsərrüfatında isə 3,1 faiz artıb. Ötən il sahibkarlara 3 milyon 546 min manat güzəştli kredit verilib. Verilmiş kreditlər hesabına 98 yeni iş yeri yaradılıb. 2018-ci ildə rayonda 601 yeni, daimi iş yeri açılıb.

Rayonda yeni yaradılan aqroparkda idarəetmə mərkəzinin, hər biri 1500 ton olan 3 ədəd taxıl bunkerinin, həcmi 50 min kubmetr olan su anbarının, 500 tonluq su hovuzunun tikintisi, həmçinin meyvə bağları üçün damcılı suvarma sisteminin quraşdırılması işləri başa çatdırılıb.

Eyni zamanda, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə hesabat ilində Qax şəhərində və kəndlərdə, ümumilikdə, 13 ədəd artezian və subartezian quyusu qazılıb. Kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi marağının artırılması, buğda istehsalının stimullaşdırılması, həmçinin yazlıq bitkilərin əkini və payızlıqların biçini ilə əlaqədar 1654 istehsalçıya 1 milyon 126 min manat məbləğində yardım verilib. Ötənilki mövsümdə fermerlər 13 min 572 hektar taxıl sahəsindən 41,1 min ton məhsul əldə ediblər. 2019-cu ilin məhsulu üçün 13 min 815 hektarda payızlıq dənlilərin səpini aparılıb.

Ötən il rayonda geniş tikinti-təmir işləri də həyata keçirilib. Belə ki, hesabat dövründə Qıpçaq kəndində 35 yerlik körpələr evi-uşaq bağçası tikilib, Tasmalı kəndində tam orta məktəb üçün inşa edilən yeni binanın, Fıstıqlı və Aşağı-Malax kəndlərində modul tipli məktəb binalarının tikintisi davam etdirilib, Əlibəyli kəndində tam orta məktəb üçün yeni binanın və Çinarlı kəndində modul tipli məktəb binasının tikintisinə başlanılıb. İlisu kəndindəki "Uludağ" Turizm və İstirahət Kompleksində 65 yerlik otelin və Ağçay kəndindəki "Bergs" otelində yeni korpusun tikintisi başa çatdırılıb.

Ötən il Zaqatala rayonu üçün də uğurlu olub. Aqrar sahədə həyata keçirilən davamlı tədbirlər sayəsində 2018-ci ildə Zaqatala rayonunda kənd təsərrüfatı məhsulları istehsalı əvvəlki illə müqayisədə 4 faiz artaraq 127 milyon 752 min manat olub. Hesabat ilində rayonun kənd təsərrüfatı üçün ənənəvi olan tütünçülük, baramaçılıq və fındıqçılığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilib. Ötənilki mövsümdə zaqatalalı fermerlər 677 hektar sahədə tütün yetişdirib, 875 ton quru tütün istehsal edib. Kümçülər tərəfindən proqnozda nəzərdə tutulan 40 ton əvəzinə 48,1 ton yaş barama istehsal edilərək "Azəripək" MMC-yə təhvil verilib. Keçən il rayonun fındıq bağlarından 15 min 69 ton məhsul tədarük edilib, fındıq istehsalı əvvəlki illə müqayisədə 1647 ton və ya 12,3 faiz artıb. Zaqatala rayonunda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan yığıncaqda rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə deyib ki, 2018-ci ildə rayonda 333 milyon 91 min manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib. Ötən il əsas kapitala yönəldilən investisiyaların həcmi 35 milyon 677 min manat, o cümlədən tikinti-quraşdırma işlərinin həcmi isə 29 milyon 101 min manat olub. Hesabat dövründə rayon iqtisadiyyatına 11 milyon manatadək özəl investisiya qoyulub. Rayonda 1127-si daimi olmaqla 1207 yeni iş yeri açılıb.

Ötənilki mövsümdə rayonun fermerləri 10 min 933 hektar payızlıq taxıl sahəsindən 35 min 610 ton məhsul götürüblər. Taxıl istehsalı əvvəlki illə müqayisədə 1290 ton artıb. Keçən il plantasiyalardan 55 ton yaşıl çay yarpağı tədarük olunub. "AzRose" MMC-nin gül plantasiyalarından 120 ton 787 kiloqram qızılgül ləçəyi və 22 ton 663 kiloqram "Lavanda" gülü yığılıb. Tədarük olunan gül ləçəklərindən 38 litr qızılgül və 290 litr "Lavanda" yağı istehsal edilib.

Eyni zamanda, ötən il rayonda bütün maliyyə mənbələri hesabına 29 milyon manatlıq tikinti-quruculuq və abadlıq işləri görülüb. Rayonun yolnəqliyyat infrastrukturunun yaxşılaşdırılması ilə bağlı ölkə başçısının müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin, həmçinin Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 35 kilometr uzunluğunda Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmiri və yenidənqurulması işləri başa çatdırılıb. Eyni zamanda, Əliabad-Muğanlı-Faldarlı-Qandax-Yengiyan-Əliabad avtomobil yolunun tikintisi davam etdirilib, Zaqatala-Aşağı Tala-Üçüncü Tala-Dağlı-Muğanlı avtomobil yolunun yenidənqurulması işlərinə başlanılıb.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə 2018-ci ildə rayonun kəndlərində daha 13 ədəd subartezian quyusu qazılıb. Lahıc, Bəhmətli və Kürdəmir kəndləri təbii qazla təmin edilib. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması üçün rayonda 3 ədəd fərdi ev tikilib istifadəyə verilib.

Yığıncaqda, həmçinin 2018-ci ildə əhalinin elektrik enerjisi, içməli su və digər xidmətlərlə təminatının yaxşılaşdırılması, vətəndaşların ərizə və şikayətlərinə baxılması sahəsində görülən işlər ətraflı təhlil edilib.

Sosial-iqtisadi inkişaf prosesləri Balakən rayonunda da uğurla davam edir. Rayonda ötən ilin yekunlarına həsr olunmuş yığıncaqda İcra Hakimiyyətinin başçısı İslam Rzayev bildirib ki, 2014-2018-ci illəri əhatə edən üçüncü Dövlət Proqramının icrası nəticəsində rayon üzrə son 5 ildə ümumi məhsul buraxılışı 42,0 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 22,7 faiz, sənaye məhsulu istehsalı 4,2 dəfə, tikinti işlərinin həcmi 2,8 dəfə, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 45,7 faiz, pərakəndə ticarət dövriyyəsi 56,2 faiz artıb.

(davamı növbəti sayımızda)

**Nardar BAYRAMLI**

# Aleksandr Serovun Heydər Əliyev Mərkəzində konserti olacaq




Aprelin 29-da Heydər Əliyev Mərkəzində Rusiya Federasiyasının Xalq artisti Aleksandr Serovun solo konserti olacaq.

AZƏRTAC xəbər verir ki, məşhur estrada ulduzu konsert proqramında milyonların sevgisini qazanmış hitləri ilə yanaşı, yeni mahnılarını da təqdim edəcək.

Aleksandr Serov virtuoz müğənni, instrumental ifaçı, şair, bəstəkar və aranjimançıdır. O, ötən əsrin 80-ci illərində məşhurlaşıb, sevgi mahnıları ilə qəlbləri fəth edib. Aleksandr Serov 40 ildən çox yaradıcılığı ərzində müxtəlif albomlar yazdırıb. Onun bir çox məşhur mahnılarının bəstəkarı İqor Krutoy olub.

ABŞ, Almaniya, Kanada, İsrail və digər ölkələrdə qastrollarda olan Aleksandr Serovun anşlaqla keçən hər bir konsertində publika onun ifasını zövqlə dinləyir.

Heydər Əliyev Mərkəzində keçiriləcək konsertə biletlərin qiyməti 30, 40, 50, 60, 80, 100, 120, 150 AZN-dir. Biletləri Heydər Əliyev Mərkəzinin kassasından, iTicket.az saytı və satış məntəqələrindən əldə etmək olar.

# Azərbaycan dilində "Məhkəmə ekspertizası" adlı ilk dərslik nəşr olunub




Məhkəmə ekspertizası sahəsində böyük təcrübəyə malik olan mütəxəssislər tərəfindən yazılmış "Məhkəmə ekspertizası" dərsliyi dövlət təhsil standartlarına uyğun olaraq Azərbaycan dilində hazırlanmış ilk dərslikdir. Cinayət, mülki və inzibati mühakimə icraatında məhkəmə ekspertizası formasında xüsusi biliklərin tətbiqinin müasir imkanlarını əks etdirən dərslikdə məhkəmə ekspertizasının ümumi (prosessual, təşkilati, metodiki) və xüsusi (sinif, növ, cins) məsələləri nəzərdən keçirilib. Burada xüsusi biliklərin anlayışı və tətbiqi formaları, məhkəmə ekspertizasının anlayışı, predmeti, obyektləri, ekspert məsələləri və onların növləri, məhkəmə ekspertizası elmi və onun inkişaf qanunauyğunluqları şərh olunub, konkret ekspertiza növləri təhlil edilib və həmin ekspertizalar üzrə ekspertlər tərəfindən həll edilməli olan sualların siyahısı və təcrübi tövsiyələr verilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məhkəmə ekspertizası nəzəriyyəsinin inkişafı məhkəmə ekspertizası tədris fənninin formalaşmasını şərtləndirib. Bu fənn tələbələrdə məhkəmə ekspertizasının anlayışı, əhəmiyyəti, obyekti və predmeti, növləri və onların mülki, cinayət və inzibati işlər ilə bağlı icraat üzrə keçirilməsinin səciyyəvi xüsusiyyətləri, ekspertin həll etdiyi məsələlər və onların təsnifatı, bu sahədə fəaliyyətin təşkili, ekspertizaların aparılmasında müasir texnologiyaların tətbiqi və digər məsələlər haqqında təsəvvür yaratmış olur.

Bu fənnin tədrisində əsas məqsəd cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında, habelə mülki, inzibati və cinayət işləri üzrə icraatın aparılmasında xüsusi biliklərin tətbiqi şərtlərinin, ayrı-ayrı ekspertiza növlərinin xüsusiyyətlərinin, məhkəmə ekspertizasının hüququn sahələri ilə qarşılıqlı əlaqəsinin tələbələr tərəfindən dərk edilməsidir.

Hər bir gənc hüquqşünas ekspert rəyinin tərtib olunması, ayrı-ayrı ekspertiza növləri üzrə ekspert qarşısında qoyulan sualların düzgün formulə edilməsi, ekspertizanın hazırlıq və tədqiqat mərhələlərində, eləcə də ekspert rəyinin qiymətləndirilməsi zamanı ekspertlərlə təmas qurulması vərdişlərinə yiyələnməklə yanaşı, ekspertizanın təyin olunması və aparılması zamanı qanunvericilik normalarını da rəhbər tutmalıdır ki, bütün bunlar "Məhkəmə ekspertizası" fənninin tədrisi prosesində mütləq şəkildə nəzərə alınır.

Müəlliflər kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, hüquq üzrə elmlər doktoru, professor F.M.Cavadov və rəis müavini, hüquq üzrə fəlsəfə doktoru H.Ə.Musayev, kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor K.N.Səlimov və hüquq üzrə fəlsəfə doktoru, dosent İ.S.Abbasova, hüquq üzrə elmlər doktoru M.H.Mustafayev, hüquq üzrə fəlsəfə doktoru, dosent B.M.Əsgərov və hüquq üzrə fəlsəfə doktoru G.A.Rzayeva tərəfindən yazılmış "Məhkəmə ekspertizası" dərsliyi bakalavriat və magistratura proqramları üzrə materialların şərh olunmasının əsas metodiki prinsiplərindən istifadə edilməklə hazırlanıb. Bu zaman, həmçinin xarici və yerli mənbələrə müraciət edilib, ayrı-ayrı mövzular üzrə müqayisəli təhlillər aparılıb, eləcə də əyaniliyin təmin edilməsi məqsədilə təcrübədən götürülmüş ekspert rəylərinə və sair materiallara istinad olunub.

Nəşrdə məhkəmə ekspertizasının perspektiv inkişaf istiqamətlərindən biri kimi müstəqil elm sahəsinin - məhkəmə ekspertologiyasının yaradılması zəruriliyinin əsaslandırılmasına da cəhd edilib. Kitab Azərbaycan dilində hazırlanmış ilk dərslik olduğundan, şübhəsiz ki, bir sıra qüsur və çatışmazlıqlardan azad deyildir. Müəlliflər kollektivi onların aradan qaldırılması üçün təklif, arzu və iradlarını bildirən dəyərli oxuculara əvvəlcədən minnətdarlığını bildirir.

Kitab Zaqafqaziyada ilk qadın kriminalist-alim, respublikamızda ilk kriminalistika və məhkəmə ekspertizası kafedrasının yaradıcısı, adı yüzlərlə hüquqşünasın yaddaşına əbədi həkk olunan professor Kamilə xanım Sarıcalinskayanın unudulmaz xatirəsinə ithaf edilib.

Dərslik tələbələr, doktorantlar, ali məktəb müəllimləri, həmçinin təhqiqat, istintaq, ekspertiza, məhkəmə orqanlarının işçiləri və bütövlükdə respublikanın elm və hüquq ictimaiyyəti üçün nəzərdə tutulub.

# Bakcell abunəçilərinə bayram sovqatı - PULSUZ 4G Internet




Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi Bakcell şirkəti öz abunəçiləri üçün xüsusi bahar hədiyyəsi hazırlayıb. Novruz bayramı ərəfəsində Bakcell abunəçilərinə 4G şəbəkəsində istifadə üçün 1 Gb PULSUZ İnternet hədiyyə olunacaq.

Azərbaycan xalqının ən sevimli bayramlarından biri olan "Novruz"a həsr olunmuş xüsusi kampaniya çərçivəsində "Mənim Bakcellim" mobil tətbiqetməsini "Google Play" və yaxud "Appstore"dan yükləyib qeydiyyatdan keçən hər bir Bakcell abunəçisi 1 Gb PULSUZ İnternet trafiki əldə edəcək. Qeyd edək ki hədiyyə yalnız "Mənim Bakcellim"də ilk dəfə qeydiyyatdan keçən abunəçilərə təqdim olunacaq.

Pulsuz İnternet 30 gün ərzində yalnız "Bakcell"in super sürətli 4G şəbəkəsində istifadə oluna bilər. Bu kampaniya sayəsində abunəçilər ölkənin ən sürətli və etibarlı 4G şəbəkəsini sınaqdan keçirəcəklər. Kampaniya aprel ayının 15-nə kimi davam edəcək.

Xatırladaq ki, abunəçilərini rahat, şəffaf və əlverişli müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell "Mənim Bakcellim" virtual müştəri xidməti tətbiqetməsini istifadəyə verib. Bu innovativ özünəxidmət tətbiqetməsi sayəsində nömrə ilə bağlı əməliyyatlar etmək üçün xidmət mərkəzinə getməyə və ya məlumat mərkəzinə zəng etməyə ehtiyac yoxdur. "Mənim Bakcellim" istifadəçiləri nömrələrinin balansı ilə bağlı maksimum şəffaf informasiyaya malikdirlər. Belə ki, abunəçilər zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət edirlər. Bundan əlavə, mobil əlavədə xidmət mərkəzi nümayəndələri ilə onlayn çat imkanı da nəzərdə tutulub. Qeyd edək ki, 1 il ərzində "Mənim Bakcellim" mobil tətbiqetməsi 240 min nəfərdən çox abunəçi tərəfindən yüklənib.

Kampaniyada iştirak edib PULSUZ internetdən yararlanmaq üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartı ilə təmin olunmalıdır. 4G-ni dəstəkləyən SİM kartı olmayan Bakcell abunəçiləri yaşadıqları əraziyə yaxın olan Bakcell Müştəri Xidməti Mərkəzinə və ya "Bakcell"in diler dükanına yaxınlaşıb öz köhnə SIM kartını yeni 4G SIM-kartı ilə əvəzləyə bilərlər.

Bakcell şirkəti Azərbaycan xalqını Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayır!

## İTMİŞDİR

Bank fəaliyyətinin həyata keçirilməsi üçün "NİKOYL" İKB ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi 90A ünvanında yerləşən "3 saylı" filialına verilmiş 27.03.2017-ci il tarixli, 203/4 saylı İcazə itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU